23 iyul 2021-ci il
№27 (8935)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı



# Rusiyada təhsil alan azərbaycanlı tələbələrin sayı 15 mindən çoxdur

## Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 20-də Rusiyaya işgüzar səfəri çərçivəsində Rusiya Prezidenti Vladimir Putin ilə görüşündəki çıxışından

Sizə onu da bildirmək istərdim ki, bu il Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialının birinci buraxılışı oldu. Bu, əlamətdar hadisədir. Zaman sürətlə keçir. Bizim iki filialda - MDU-nun və Seçenov Universitetinin filiallarında mindən çox tələbə təhsil alır. Rusiyada təhsil alan azərbaycanlı tələbələrin sayı 15 mindən çoxdur. Azərbaycanda isə 16 min tələbə rus dili bölməsində təhsil alır. Beləliklə, Azərbaycan gənclərinin belə bir böyük dəstəsi artıq Rusiya ilə dil, ünsiyyət və təhsil vasitəsilə bağlıdır. Düşünürəm ki, bizim təcrübəmizi böyüməkdə olan nəslə əməli surətdə ötürmək çox vacibdir.